# Kazus

3 həkimin tibb fəaliyyəti ilə məşğul olmaq hüququ tibb fəaliyyətinə qanunvericilik əsasında nəzarət edən Tibb Şurası tərəfindən müəyyən müddətə dayandırılmışdır. Buna səbəb həkimlər tərəfindən Şuraya qarşı tənqidedici fikirlərin dərc edilməsi olmuşdur. Tibb Şurasının qərarından Şuranın Apellyasiya instansiyasına verilmiş şikayət təmin edilməmişdir.
Kasassiya Məhkəməsi Apellyasiya Şurasının qərarını qüvvədə saxlamışdır.
Ərizəşilər AİHM-nə müraciət edərək bildirmişlər ki, Tibb Şurasına məcburi üzvlük (belə üzvlük olmasa heç kəs tibb fəaliyyəti ilə məşğul ola bilməz) Birləşmək azadlığı prinsipinə ziddir.

Sual: Ərizəçilərin hüquqları Konvensiyanın 11-ci maddəsi ilə qorunurmu?

Cavab: Le Kompt və digərləri Belçikaya qarşı iş. Məhkəmə qərara gəldi ki, Tibb Şurası publik hüquq qurumdur, çünki fərdlər tərəfindən deyil, qanunvericilik orqanı tərəfindən yaradılıb. O, dövlətin strukturuna iniqrasiya edilən qurumdur və tibb fəaliyyətinə ictimai nəzarəti həyata keçirir. Şuraya bir çox, o cümlədən inzibati və normayaratma səlahiyyətləri verilib. Bu səbəbdən Tibb Şurası 11-ci maddənin əhatə dairəsinə düşən birlik deyil.

*Hazırladı: Sevinc Əliyeva*